Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Vətənpərvər yazıçı Aqil Abbas

**Aqil Abbasın 65 illik yubileyi münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aidə Şirəliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Vətənpərvər yazıçı Aqil Abbas:** Aqil Abbasın 65 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Şirəliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 20 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Bədii olan, yaşamağa qadir hər bir sözün, mətnin arxasında şəxsiyyət durur. Bu şəxsiyyətlərin varlığıdır ki, ədəbiyyat yaranır və həmin şəxsiyyətlər olmasa, mənəviyyat aləmi də olmaz. Altmış beş yaşı aprelin ilk günündəcə tamam olan Aqil Abbas Məhəmməd oğlu da müasir ədəbiyyatımızda belə şəxsiyyətlərdən biridir. Bu gün çox mürəkkəb və təzadlı bir zəmanədə – Azərbaycan cəmiyyətində Aqil Abbasın öz yeri və mövqeyi var. Aqil Abbasın ilk yazılarında böyük bir səmimiyyət duyulur və bu səmimiyyət ondan irəli gəlir ki, o, həyatın, gerçəkliyin olaylarını, ən başlıcası, özünün və yaşıdlarının romantika ilə dolu gənclik duyğularını qələmə alır. Aqil Abbas müstəqillik dövrünün bütün atributlarını özündə əks etdirən yazıçılardandır. Aqil Abbasın yaradıcılığı ilə şəxsiyyəti bir-birini tamamlayır. Aqil Abbas bu altmış beş ildə çox maraqlı bir ömür yolu keçib. Sevincli, kədərli, qəmli, zəfərli, uğurlu, uğursuz anlar… Təəssüf ki, insanın tərcümeyi-halında ancaq rəsmi məqamlar qeyd olunur. Təbii ki, bütün bu olmuşlar-keçmişlər Aqil Abbasın tərcümeyi-halında öz əksini tapıb. Amma Aqil Abbas yazıçıdır, ədibdir və yazıçının əsl tərcümeyi-halı onun bədii əsərləridir, bu əsərlərdə yazıçının həyatının rəsmi tərcümeyi-hala sığmayan məqamları ilə rastlaşırsan.

Aqil Abbasın 65 illik yubileyi münasibətilə respublikamızın bütün mədəniyyət ocaqlarında, kitabxanalarda, məktəblərdə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Biz də bu vəsaiti Azərbaycan Yazıçılar İttifaqının üzvü olan Aqil Abbasın anadan olmasının 65 illik yubileyi münasibətilə sizə təqdim edirik. Vəsaiti sizə təqdim etməkdə əsas məqsədimiz oxucuların görkəmli yazıçı haqqında olan məlumatlarını daha da artırmaqdır. Vəsaitin I hissəsi yazıçının həyat və yaradıcılığından, II hissəsi isə kitabxanalarda keçirilən yubiley tədbirlərdən bəhs edilir.

## Həyat və yaradıcılığı

Aqil Məhəmməd oğlu Abbasov 1953-cü il aprelin 1-də Ağcabədi rayonunun Kolalı kəndində doğulub. 1955-ci ildə 2 yaşında olarkən ailəsi ilə birlikdə Ağdama köçüb. Ağdam 1 saylı orta məktəbini bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsilini davam etdirib (1970-1976). Əmək fəaliyyətinə Ağsu rayonundakı internat məktəbində müəllim (1976-1977) kimi başlayıb, "Elm və həyat" jurnalında fotomüxbir, şöbə müdiri (1977-1987), "Sovet kəndi" qəzetinin xüsusi müxbiri (1987-1990) işləyib. Hazırda "Ədalət" (1990-cı ildən), "Boz qurd" (1993-cü ildən) qəzetlərinin baş redaktorudur. Bədii yaradıcılığa 1970-ci ildən başlasa da, ilk mətbu hekayəsi "Şirinlik" 1976-cı ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunub. Bunun ardınca 1977-ci ildə "Şəbədə Nazim" hekayəsi "Ulduz" və "Azərbaycan" jurnallarında işıq üzü görüb. Həmin dövrdən mətbuatda müntəzəm çıxış edir. Aqil Abbas nəsrinin ilk böyük uğuru "Günah" povestindən (1979) başlanır. Yazıçı bu əsərdə insan taleyində rezonans verən Cəmiyyət günahlarını məhz magik realizm ünsürlərinin imkan açdığı ifadə üstünlüyü ilə çözür. Monoloji etiraf tonallığında qurulan təhkiyə son halda mistik-rəmzi qatlara açılmaqla daha dərin mənalar kəsb edir. Qəhrəmanın bütün həyatını – sevincləri, nisgilləri, ağrı və iztirabları ilə əhatələyən mistik qoz ağacı eyni zamanda onun tragikomik taleyinin simvoludur. Fəlsəfi qayə və estetik cazibədarlığını mətn bu gün də saxlamaqdadır: İnsan ömrünün bahası yetişdiyi mənəvi mühitə bağlıdır.

Ötən əsrin 70-ci illərində yaradıcılığa başlayan Aqil Abbas sonralar ədəbiyyat xəzinəmizi "Evləri köndələn yar", "Ən

xoşbəxt adam", "Batmanqılınc", "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz", "Saçın ucun hörməzlər", "Qiyamət gecəsi", "Qapqara uzun saçlar", “Dolu” kimi bir birindən gözəl, oxunaqlı, ən əsası isə xalqımızın ruhu ilə səsləşən əsərlərlə zənginləşdirmişdir. “Ölülər” komediyası dahi Cəlil Məmmədquluzadənin 100 il öncə qələmə aldığı eyni adlı əsərinin motivləri əsasında yazılmışdır. Doğrudan da zaman məkan dəyişsə də yüz il bundan qabaq gülüş hədəfinə çevrilənlər mahiyyətcə dəyişməmişdir. Ölülər çağdaş dünyamızda daha geniş miqyasda müasir biçimdə təzahür etmişlər. Yazıçının bu əsəri 2011-ci ildə qələmə alınıb və 56 səhifədən ibarətdir. Yazıçı pyesdə hər obrazın xarakterini olduğu kimi saxlayıb ustadın dilinə və üslubuna toxunmamağa çalışıb.

Aqil Abbas güclü yumor hissinə malik sənətkardır. Yəni ciddi olduğu qədər də mülayimdir, hazırcavabdır. Haqsızlıqla qarşılaşanda dilindən od püskürən yazıçı həmin andaca yumora keçməyi bacarır. "Dolu"da bir neçə yerdə bunun şahidi oluruq. Şairin yanından keçən "Əzrayıl dilxor-dilxor şairə baxdı, rəhmətliyin oğlu o qolunu bir çək də mən sənin dalınca Sibirə gəlməyim". “Bəylərin torpağında düşmən tank oynatmaz” və yaxud "Bəyinköməkçisi olmur, nökəri olur”.

2001-ci ildə qələmə alıb, 2005-ci ildə kitabça şəklində dərc etdirdiyi "Qarda açan qan çiçəyi" povestində Aqil Abbas bilavasitə sərt müharibə mənzərələrini nəsrə gətirir. Aqil Abbas Azərbaycanın əməkdar jurnalistidir. “Araz”, “Dan ulduzu”, “Qızıl qələm” mükafatları laureatıdır. 8 kitabın müəllifidir. 2005-ci ildə Azərbaycan Milli Məclisinin 3-cü, 2010-cu ildə 4-cü, 2015-ci ildə 5-ci çağırışına deputat seçilib.

## Yubiley tədbirlərinin keçirilməsi

Bu il yazıçı, kinodramaturq, Yazıçılar Birliyinin üzvü, qüdrətli ədəbiyyatşünas Aqil Abbasın 65 yaşı tamam olur. Bu münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Tədbiri keçirmək üçün kitabxana məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Təşkil edilmiş yubiley sərgisinin qarşısında silsilə tədbirlər – söhbətlər, biblioqrafik icmallar və s. keçirmək planlaşdırılmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: *"Aqil Abbas – 65", "Bugünki gəncliyi qəhrəmanlığa vətənpərvərliyə çağıran yazıçı", "Sözünün kəsərini qoruyub saxlayan yazıçı", "Güclü bədii təsvir vasitələrinə malik yazıçı", "Yaratdığı "Ədalət" qəzeti ilə xalqımıza xidmət edən yazıçı", "Vətənpərvər yazıçı Aqil Abbas", "Qüdrətli ədəbiyyatşünas Aqil Abbas".*

## Kitab sərgisi












Orta yaş qrup oxucular arasında Aqil Abbasın yubileyi münasibətilə sual-cavab gecələri, testlər və ya ədəbi viktorinalar təşkil oluna bilər. Sual-cavab gecəsi kitabxanaçı tərəfindən təşkil olunur və oxuculara suallar təqdim olunur.

**Suallar:**

**1.** Aqil Abbas kimdir ?
Aqil Abbas yazıçı, kinodramaturq və ədəbiyyatşünasdır.

**2.** Aqil Abbasın hansı romanlarını tanıyırsınız ?
"Qiyamət gecəsi", "Qapqara uzun saçlar", "Batmanqılınc", "Dolu", "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" və s.

**3.** Yazıçı əsasən hansı mövzuya toxunmuşdur ?
Yazıçı əsasən vətənpərvərlik mövzusuna toxunmuşdur.

**4.** Aqil Abbas hansı qəzetin redaktorudur ?
Aqil Abbas "Ədalət" qəzetinin redaktorudur.

**5.** Aqil Abbasın hansı romanlarına filmlər çəkilib ?
"Dolu" romanına film çəkilib (2012).

*Sual-cavab gecəsinin sonunda kitabxanaçı sualları düzgün cavablandıran oxucuları mükafatlandırır və A.Abbasın həyat və yaradıcılığı haqqında daha dərindən maraqlanmalarını tövsiyə edir.*

Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi Aqil Abbas bir-birindən maraqlı romanlar, povestlər müəllifidir. Müsabiqə zamanı həmin əsərlərə uşaqlar tərəfindən illüstrasiyalar çəkilməsi tapşırılır. Şəkilərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Aqil Abbasın əsərlərini oxuyur, həm də oxuduqları və ən çox bəyəndikləri hekayəyə illüstrasiyalar çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri

mükafatlandırılır. Rəsm müsabiqələri ilə yanaşı, başqa müsabiqələrin də təşkili mümkündür. Məsələn, yuxarı sinif şagirdləri Aqil Abbasın "Dolu" romanından bir parçanı səhnələşdirirlər. Əsəri ən gözəl səhnələşdirən şagirdlərdən ibarət komanda münsiflər heyəti tərəfindən mükafatlandırılır.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Aqil Abbasın yaradıcılığı müasir gəncliyin gözü ilə" adlı konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən edilməlidir. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Aqil Abbasın yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Yaxşı olar ki, konfransa Aqil Abbasın özü, yaradıcılığı ilə yaxından tanış olan yazıçı və ədəbiyyatşünaslar dəvət olunsun.

Oxucu konfransının planını sizə təqdim edirik:

**1.** Giriş hissə (Aqil Abbasın həyat və yaradıcılığı haqqında məruzə) ;

**2.** Aqil Abbasın yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları;

**3.** Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Aqil Abbasın müxtəlif əsərləri ətrafında müzakirələri;

**4.** Yazıçının əsərlərindən bir neçə parçanın səhnələşdirilməsi;

**5.** Konfransın yekunu.

Kitabxanada, həmçinin sərgi ətrafında yazıçının yazdığı kitablar haqqında *oxucularla söhbət* də keçirmək olar. Məsələn: "Batmanqılınc" romanı haqqında. Aqil Abbasın

“Batmanqılınc” romanı 1995-ci ildə “Gənclik” nəşriyyatında çap olunub. Romanda XVIII əsrin sonunda Azərbaycan xanlıqları arasındakı ziddiyyətli münasibətlərdən, həmin dövrdə Qarabağda cərəyan edən hadisələrdən, Azəri yurdunu bütünlükdə öz hakimiyyəti altında görmək istəyən Ağa Məhəmməd şah Qacarın böyük qoşunla Şimali Azərbaycana yürüşündən, rus imperiyasının Qafqazda ilk dayaqlarının yaranmasından və bu gərgin ictimai-siyasi durumda faciəli yaşayan o tay-bu tay Azərbaycan xalqının qismətinə düşmüş ağrılı-acılı taledən söhbət açılır. Kitabda, həmçinin yazıçının “Günəşə at çapan uşaq” povesti də verilmişdir.

Kitabxanada Aqil Abbasın yaradıcılığını oxuculara tanıtmaq məqsədilə kitabxanaçı onun qələmə aldığı əsərlərin təhlilini keçirə bilər.

**Əsərlərin təhlili.** Aqil Abbas o zaman öz nadir və son dərəcə parlaq istedadı ilə artıq məşhurlaşmağa başlayan Qədir Rüstəmovun həyatından bir povest yazdı. Bu əsər məhəbbətdən, səmimiyyətdən yaranmışdı. Çünki “bu səs adilikdən başlayıb qeyri-adiliyə qalxırdı. Bütün yük düşürdü tarın üzərinə. Yalnız tar o zirvəyə qalxmağı bacarırdı”.

Aqil Abbas “Xoşbəxt” adlı povestində artıq yetkin qələm sahibi kimi diqqəti cəlb etməyə başladı. Əgər o, “Evləri köndələn yar” povestində ancaq səmimi təsir bağışlayırdısa və bu səmimiyyət bütün əsər boyu davam edirdisə, “Xoşbəxt” povestində səmimiyyət həm də istedadla müşayiət olunurdu. “Xoşbəxt” povestində Aqil Abbas ilk hekayələrindəki romantikadan üzülüşməmişdi, yenə təmiz hisslərlə yaşayan, xoşbəxtlik haqqında düşüncələrə dalan yaşıdının taleyini əks

etdirmişdi. Təklik və tənhalıq içində çırpınan bu yaşıdı sovet dövrünün ictimai sifarişindən doğan ideallarla deyil, öz ürəyinin səsi ilə yaşayırdı. O, tək və tənha qəhrəman bu təklikdən və tənhalıqdan mümkün qədər uzaq olmağa çalışırdı. Hətta həyatının elə bir məqamına gəlib çatır ki, ölümlə üzbəüz dayanır. Ancaq bu zaman qəhrəmanın xəyalında yaşatdığı o qız gəlib çıxır. "Elə bil ki, otağı həmişəki otaq deyildi, işıqlanmışdı". Və povestin sonu da elə bu işıqlı cümlələrlə bitirdi: "Qəribədir. Leyla getmişdi, amma otaq elə əvvəlki kimi işıqlı və isti qalmışdı". "Saçın ucun hörməzlər" adlı başqa bir povestində də Aqil Abbas yenə işığa üz tutur: "Bu vaxt iynənin ulduzu boyda işıq göründü və bu işığa doğru iki əl uzandı, nəhayət, çatdı işığa". Beləcə, onun hər iki qəhrəmanı işıqla zülmətin qovuşduğu yerdən, iki prizmadan nəzərə çarpırdı. Ancaq Aqil Abbas işığı seçir, çünki işıq həyat deməkdir. Həyatı isə lap bir insan üçün də zülmətə, qaranlığa çevirmək olmaz. Doxsanıncı illər Azərbaycanın ictimai, siyasi, mənəvi həyatında yeni bir dövrün başlanması ilə xarakterizə olunur. Dəyişilən zəmanə, ictimai quruluş və sistem yeni insan və qəhrəman tipini yaratmalıydı və proses bir qədər çətin və mürəkkəb başa gəlsə də, hər halda öz axarını tapdı.. Doxsanıncı ildən təsis etdiyi və uzun müddət baş redaktor olduğu "Ədalət" qəzeti həm məzmununa görə, həm də ideya-estetik prinsiplərinə görə müstəqillik dövrünün mahiyyətini ifadə edən ilk qəzetlərdən biri oldu. Aqil Abbas "Ədalət" qəzeti vasitəsilə bir sıra ədəbi qrupları və meylləri bir araya topladı. Qəzetdə əlavə ədəbiyyat səhifələri yaradıldı. Müstəqillik dövrünün yazıçısı kimi Aqil Abbas doxsanıncı illərdən üzü bəri bir realist

olaraq Azərbaycan həqiqətlərini qələmə alır. Onun "Qiyamət gecəsi", "Qapqara uzun saçlar" povestlərini müəllifin yaradıcılığında yeni meyllərin, keyfiyyət dəyişikliklərinin yarandığından xəbər verirdi. Aqil Abbas artıq tam professionallaşmışdı və onun bu povestlərdə bədii imkanları qarşıdakı uğurlarından soraq verirdi. Aqil Abbas "külli Qarabağın abi-həyatından" pərvəriş tapsa da, ilk növbədə, varlığında və yaradıcılığında böyük azərbaycançıdır. Bu azərbaycançılığın tərkibində həm də Qarabağ sevgisi dayanır. Əgər belə demək mümkünsə, Aqil Abbas üçün Qarabağla Azərbaycan bir-birindən ayrılmaz məfhumlardır. Aqilin yazılarında Qarabağ koloriti çox güclüdür O, Qarabağı bütün tarixi keçmişi və müasirliyi ilə azərbaycanlaşdıran yazıçıdır. "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" povestini Aqil Abbasın "Qarabağı necə xilas etmək olar?" suallarından birinə cavab hesab etmək olar. O, povestin girişində yazır ki: "Elə dərdlər var ki, onu yazmaq üçün qüdrətli bir qələm sahibi olmalısan. Və bu dərdi içimdən keçən kimi yazmağa qüdrətim çatmadı. Gücüm çata bilən qədər yazdım". Bu sözlərlə Aqil Abbas təvazökarlıq etmişdir. Çünki povest, bizim fikrimizcə, doğrudan da, sənətkarlıqla qələmə alınıb və onun hər səhifəsində yanan ürəyin çırpıntıları eşidilir. Aqil Abbas XX əsrin sonları Azərbaycan həqiqətini – Qarabağ müəmmasını mükəmməl bir süjet daxilində oxuculara açıqlayır. Bədii əsər, əgər real hadisələrdən söz açırsa, ilk növbədə, tarixi həqiqəti ifadə etməlidir. Və Aqil Abbas ilk yazıçılardandır ki, Qarabağ müharibəsi haqqında birtərəfli, səthi, yanlış təsəvvürləri aradan qaldırır. O, "Qarabağı necə xilas etmək olar?" sualına cavab

verərkən, igid bir sərkərdənin yaxud qəhrəman bir döyüşçünün həyat yolunu və taleyini deyil, müharibənin bütün ağırlığını, dəhşətini yaşayan adi bir insanın taleyini əks etdirməklə buna nail olur. Müəllim adlandırdığı bu adam başdan-ayağa dərd içində olsa da, təpədən-dırnağa qeyrət mücəssiməsidir. Aqilin "Allahı qatil edənlər" romanında da əsas qəhrəman gerçəkliyin özüdür, amansız həqiqətlərdir. Yeni əsərində A.Abbas bir romançı kimi bir qədər də formalaşır, qabağa gedir. Nəsrin ən çətin və ən mürəkkəb janrı olan roman XX əsrdə, elə XXI əsrdə də insanın daxili-ruhi təkamülünün ideal göstəricisi səviyyəsində bir hadisəyə çevrilmişdir. Bu janrın əsas missiyası dünyanın özünün bütövlükdə mahiyyət və mənasını açmaq, onun amansız həqiqətlərini insanın gözləri qarşısında canlandırmaq və bədii sözün qüdrətilə yaşamağın fəlsəfəsini açıqlamaqdır. Odur ki, roman kimi belə böyük bir missiyanı həyata keçirən bir janra müraciət etmək cəsarət tələb edir. Aqil Abbas belə bir cəsarəti özündə tapıb və arzu edərdik ki, o, roman yaradıcılığını davam etdirsin. Əslində, "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz", "Dolu" və "Allahı qatil edənlər" əsərlərini trilogiya hesab etmək olar. Üçüncü əsərdə əvvəlki iki əsərdəki hadisələrin məntiqi davamı gəlir. Müəllif diqqəti müharibəyə və onun törətdiyi faciələrə deyil, bu faciələrin dinc və sakit dövrdəki fəsadlarına, mənəvi bəlalarına yönəldir...

Aqil Abbasın kitabxanada bir neçə kitabının icmalını keçirmək, həmçinin *əsərlərinin müzakirəsini* də təşkil etmək olar. Müzakirələr keçirilərkən yazıçının povestlərindən, romanlarından söhbət açılır və bu haqda oxucuların fikirləri öyrənilir. Bu məqsədlə Aqil Abbasın "Dolu" romanının oxucularla müzakirəsinin keçirilməsi məqsədəuyğundur.

**Kitabxanaçı:** Sevilən yazıçımız Aqil Abbasın oxuculara təqdim edilən "Dolu" romanı hələ bitməyən Qarabağ müharibəsinə həsr olunub. Romanda rəsmi vəzifə daşıyan insanlardan tutmuş kriminal qurumun nümayəndələrinə qədər hər kəsin hətta müdaxiləyə məruz qalan şəhərin – Dünyanın Ən Varlı Şəhərinin özünün də, yağan güllələrin də obrazı var. Dolu vuran şəhərin sakinlərinə olan bütün sipərləri keçib gələn dolununmu yoxsa artıq öz yaratdıqları ilə bacarmayan Tanrınınmı vurduğunu kəsdirməyə çalışarkən öz məhvərindən çıxan Dünya baş alıb hara gəldi gedir. Varlı Şəhəri də, At belində olanı da, Vurğun Vuranı da, Dünyanın Ən Varlı Şəhərinin ölümündə ən böyük günahı özündə görən komandiri də, bir sözlə, hamını özü ilə aparır. Atkeçməz yollardan keçən Dünyanın hansı mənzilə vuracağı bütün əsər boyu oxucunu düşündürür. Romanda ən epizodik rolları belə elə təsvir edir ki, bu surətlər səhnədən tez çəkilib getsələr belə onların yeri əsərdə uzun zaman görünür. Məsələn, cəbhə bölgəsinə konsert verməyə gələn Rəşid Behbudovun xəncəri və papağı oğurlanır. Bu isə tanınmış müğənnini qəzəbləndirir. Əlbəttə, itirdiyi əşyalara görə yox. "Bu oğurluq deyil, mənə sataşmaqdır" – deyir. Və sonra əsl gerçəyi biləndən sonra bu əşyaları Pələngə bağışlayır. Bu olayı çox gözəl təsvir edən Aqil Abbasdan əslində oxucu başqa şey də gözləyə bilməz. Rəşid Behbudov əslində belə etməlidir. Və yaxud, komandirin qoluna qandal vurmaq istəməyən paqonunu özü söküb atan polis, Əsgər Köynəkli Oğlan belə surətlərdəndir. Əsərin yaddaqalan surətlərindən biri Raykom katibidir. Katib Bakıdakı rəhbərlərin buyruqlarını yerinə yetirməkdən daha çox idarə etdiyi rayonun əhalisinin qeydinə qalır, onları təmin etməyə çalışır. O, yardım gətirən nümayəndələrin birincinin xoşuna gəlsin deyə,

Ağdamın "Lenin" meydanında rəhbərlərin adına uzun-uzadı xütbə oxumasından qəzəblənir. "Mənə heç kəsin yardımı lazım deyil, bu şəhər hələ ölməyib" – deyir. Və yaxud Komandir ona siqaret təklif edəndə o, "dərd qoyur ki, başqa şey çəkim?” – deyir.

**I oxucu:** Əsərin əvvəlində "Dolu"da heç kimin ünvanına konkret heç nə deyilmədiyi və əsərin yazıçı təxəyyülü olduğu bildirilsə də, hər halda "Dolu" Tomas Morun "Utopiya"sı deyildir və burda söhbət konkret olaraq Qarabağ savaşından, daha dəqiq Ağdamdan və onun qəhrəman müdafiəçilərindən gedir. Bundan başqa, müəllif əsərdə təsvir etdiyi hadisələrin çoxunda şəxsən iştirak edir. Əks halda ayrı-ayrı döyüş səhnələri belə təbii və inandırıcı alınmazdı. Əsəri oxuculara sevdirən daha bir cəhət isə onun zamanında yazılmasıdır. Dəyərli professorumuz Nizami Cəfərov əbəs yerə demir ki, "Müharibə ədəbiyyatı mütləq müharibə dövründə yazılmalıdır". Görünür müəllif heç kimin xətrinə dəymək istəməmişdir. Yoxsa mənfi obraz olan At Belində Olan Adam surətini daha da qabarıq verə bilərdi. Əslində at belində olmaq burda rəmzi anlam daşıyır. Bu, zənnimcə, hər şeyə əli çatmaq, hər imkanda bulunmaq anlamında işlənir. At Belində Olan Adam rüşvət almaqla hədsiz sərvət toplamış, əqidəsini, amalını, şərəfini sərvət toplamaqda görən minlərlə insanların ümumiləşdirilmiş obrazıdır. Doğma rayonu ölüm-dirim uğrunda direniş aparırkən, ucqar rayonlardan belə onun şərəfini qorumağa gələn və həvəslə özünü ölümə atan insanlara o pul qıymır. Və Drakon haqlı olaraq "Vuruşmağa qeyrətləri çatmır, heç olmazsa canları çıxsın indi bir az millətə xərcləsinlər” – deyir.

**II oxucu:** "Dolu" nun bir özəlliyi də ondan ibarətdir ki, burada nə müsbət, nə də mənfi qəhramanların hansının əsas surət olduğunu ayırd etmək çətindir. Belə müsbət surətlərdən biri Drakon, keçmiş sovet dövrünün kriminal aləminə məxsus, bu cəmiyyətin qanunları ilə barışa bilməyən, zamanın sınaqlarında bişmiş, heç bir vəchlə sındırılası mümkün olmayan, az qala dünyanın yarısı boyda olan bir imperiyaya meydan oxuyan onlarla, bəlkə də, minlərlə insanın biri idi. Aqil Abbas bu gün cəmiyyətimizdə nadir təsadüf olunan o ziyalılardandır ki, onun qələmə aldıqları ilə işi, sözü ilə əməli üst-üstə düşür. Bütün dövrlər üçün xalqımıza gərəkli, özəlliklə də biz gənclər üçün ideal olan bu bəxtiyar İnsanla qürur duyuruq.
**III oxucu:** “Dolu” romanı yazıçının yaradıcılığının zirvəsi hesab etmək olar. Roman müharibə dövrünün gerçəkliklərini əks etdirmək, bugünkü gəncliyi qəhrəmanlığa, vətənpərvərliyə səsləmək baxımından çox önəmlidir. Lakin bu əsərin yazılması işin yalnız bir hissəsidir. Əsər geniş təbliğ olunmalıdır, yayılmalıdır. Özəlliklə də hər şeyin özülünü qoyduğumuz orta məktəblərdə. "Dolu"nun ömənimi qeyd edən professor Nizami Cəfərov bu əsəri "Qarabağnamələrin biri kimi" səciyyələndirərək yazır: "Mən romanı oxuduqca həm Aqil Abbasın yazıçı təbiətinə, həm də əsərə tərcümeyi-hal kimi yanaşmasına heyran oldum və mənə elə gəldi ki, əsər bir "Qarabağnamə" kimi yazılıb, xalqın yazdığı ədəbiyyatın "Qarabağnamə"si kimi".

Əsər çox maraqlı bir sonluqla bitir: "Və göy üzündən də yuxarıdan necə bir Dolu başladısa camaat dik atıldı və sevinclə özünü atdı bayıra”. Düşünürəm ki, bu artıq bizim topların,

tankların, təyyarələrin səsidir ki, Drakonun qanlı köynəyini bayraq edib hücuma keçən milli ordumuzun düşmənin başına yağdırdığı Dolu idi. O gün uzaqda deyil.

Kitabxanada Aqil Abbasın yaradıcılığının təbliği üçün tələbələrin *yazıçı ilə görüşünün* keçirilməsi də məqsədəuyğundur. Görüşün keçiriləcəyi zal dramaturqun portreti, əsərlərini əks etdirən şəkillər və dramlarının adları ilə bəzədilir. Zalın bir tərəfində Aqil Abbasın əsərlərindən ibarət sərgi təşkil olunur. Sərgi yazıçı haqqında yazılmış sitatlarla bəzədilir. Tədbirə Aqil Abbas və onun yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, tənqidçilər, jurnalistlər, həmçinin yuxarı sinif şagirləri və ədəbiyyat müəllimləri dəvət olunur.




Kitabxanada yuxarı sinif şagirlərinin iştirakı ilə Aqil Abbasın "Dolu" romanının motivləri əsasında çəkilmiş "Dolu" Azərbaycan tammetrajlı bədii *filminin nümayişi* də keçirilə bilər. Tədbirə film haqqında maraqlı məlumatlar vermək üçün əsərin müəllifi və ssenari müəllifi olan Aqil Abbası, filmin quruluşçu rejissoru Elxan Cəfərovu və digər film heyətini dəvət etmək olar. Bu film haqqında qısa məlumata keçid alaq:

Film Qarabağ müharibəsi mövzusunda Aqil Abbasın eyniadlı romanı əsasında 2012-ci ildə "Azərbaycanfilm" kinostudiyasında çəkilmişdir. Film Qarabağ müharibəsində heç nəyə baxmayaraq Vətən uğrunda son damla qanına qədər döyüşən Azərbaycan oğullarının qəhrəmanlıqlarından bəhs edir. 2013-ci ildə Bakıda Mədəniyyət və Turizm Nazirliyinin teatr, musiqi, təsviri sənət və kino sahəsində təsis etdiyi "Zirvə" mükafatının 6-cı təqdimetmə mərasimində filmin yaradıcı heyətinə "Zirvə" mükafatı verilmişdir.

## Ədəbiyyat siyahısı

***Əsərləri***

***Kitablar***

**Dolu :** Roman. - Bakı : Təhsil, 2008. - 256 s. : il., rəngli foto.

**Batmanqılınc :** roman. - Bakı : Qanun, 2011. - 280 s. - (Azərbaycan nəsri)

**Ölülər :** Mirzə Cəlilin eyniadlı pyesi əsasında. - Bakı : Təhsil, 2011. - 56 s.

**Allahı qatil edənlər :** roman. - Bakı : Gənclik, 2013. - 128 s.

***Kitablarda***

Şəbədə Nazim : hekayə // Azərbaycan nəsri antologiyası. 5 clddə . - Bakı : Şərq-Qərb, 2006. - **C. 5**. - S. 300-307.

***Dövri mətbuatda***

**Məmməd Arazın Həmidə xanımı :** Məmməd Araz - 80i. - 2013. - 20 sentyabr. - № 35. - S. 6.

**Dolu :** roman // Azərbaycan. - 2007. - № 12. - S. 56-139.

**Allahı qatil edənlər** : roman // Azərbaycan. - 2011. - № 10. - S. 23-94.

***Haqqında***

***Dövri mətbuatda***

**Bəşirov S.** Qiyamətə qalan qisas : Sabir Əhmədov, Aqil Abbas, Azad Qaradərəli, Eyvaz Zeynalov haqqında // Kaspi. - 2012. - 4-6 avqust. - № 369. - S. 21.

**Cəfərov N.** Onun özü və sözü : yazıçı Aqil Abbas // Azərbaycan. - 2013. - 19 mart. - № 61. - S. 10. “Dolu” filmi media işçilərinə təqdim olundu // İki sahil. - 2012. - 6 sentyabr. - № 162. - S. 14.

**Hacıyev T.** "Dolu"nun qəm buludu : Aqil Abbasın "Dolu" romanı haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 5 iyun. - S. 7.

**Həsənova L.** Müasir nəsrdə məzmun və ideya paradiqması // Azərbaycan. - 2014. - № 6. - S. 174-185. . – Məqalədə A.A-ın yaradıcılığına da...

**Məhərrəmova T.** 20 Yanvar faciəsi ədəbiyyatımızda : qəhrəmanların, şəhidlərin obrazları bədii mətnlərdə əksini taparsa, millət öz tarixini o əsərlər əsasında bərpa edə bilər // Kaspi. - 2018. - 20 yanvar. - № 12. - S. 10. – Məqalədə mövzu ilə əlaqədar Aqil Abbasın yaradıcılığından da söz açılır.

**Rüstəmoğlu S.** Şəhid şəhər : Aqil Abbasın "Dolu" romanı haqqında fikirlər // Ulduz. - 2012. - № 5. - S. 69-77.

**Seyran Səxavət haqqında** deyirlər ki... : Seyran Səxavət - 70 // Kaspi. - 2016. - 5 mart. - № 40. - S. 10. – Deyimlər arasında Aqil Abbasın da deyimləri öz yerini alıb.

**Tanınmış yazıçı-publisist Aqil** Abbasın 60 illik yubileyi günündə Nizami Kino Mərkəzində "Dolu" filmi yenidən nümayiş olundu // Ədəbiyyat qəzeti. - 2013. - 5 aprel. - № 12. - S. 4.

**“Ulduz”** da yeni bir layihə : Hesab bərabərdi (?!) // Ulduz. - 2011. - № 12. - S. 9-12. - yazıçı Aqil Abbas və Zahir Əzəmət bir-biri ilə sual cavabda.

**Yusifli V.** Ağ saçların hekayəti : Aqil Abbas - 60 // Ədəbiyyat qəzeti. - 2013. - 30 mart. - № 11. - S. 6.

# Vətənpərvər yazıçı Aqil Abbas

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 24
Çapa imzalanmışdır: 09.03.2018
Tirajı:100
Pulsuz